| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST395, Türk Xalqları Tarixi-2, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim** | Dr. Söhrab Mustafayev |
| | **E-mail:** | smustafayev@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov kampusu/ 402-ci otaq |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>**1.** Zəki Vəlidi Toqan, Ümumi Türk Tarihine Giriş, İstanbul, Enderun Kitabevi, 1997.<br>**2.** Telman Nüsrətoğlu- Əkbər Nəcəf, Türk Dövlətləri və Mədəniyyətləri Tarixi, Bakı , Xəzər Universiteti Nəşriyyatı , 2023.<br>**3.** Ramin Qurbanov. Türk xalqlarının tarixi. II hissə, Bakı, 2011.<br>**4.** Telman Nüsrətoğlu , Rusiyanın Azərbaycan Siyasəti, İstanbul, 2012.<br>**5.** Telman Nusretoğlu, Osmanlı Hariciyesinin Güney Kafkasya Raporları, Ankara , 2021.<br>**6.** Jean-Paul Roux, Türklerin Tarihi, Kabalcı Yayınevi, İstanbul, 2010.<br><br>**Əlavə:**<br>**1.** Sina Akşin, Kısa Türkiye Tarihi, İstanbul, 2017(pdf)<br>**2.** Stanford J. Shaw, Osmanlı İmparatorluğu ve Modern Türkiye, İstanbul, 2008.<br>**3.** Bernard Lewis, Modern Türkiye'nin Doğuşu<br>**4.** Kürşat Yıldırım, Doğu Türkistanın Tarihi Coğrafyası (pdf).<br>**5.** Doğu Türkistan ve Uygur Türkleri: Dünü, Bugünü ve Yarını.(pdf).<br>**6.** Rauf Orbay, Cehennem Değirmeni | |
| **Kursun təsviri** | Türk xalqları tarixi-2 fənninin əsas istiqamətini XIX və XX əsr türk tarixinin siyasi, sosial, iqtisadi və hərbi məsələləri təşkil edir. Müxtəlif türk coğrafiyalarında baş vermiş hadisələr əsasında formalaşan fənnin əsas tərkib hissələrindən biri də Azərbaycan tarixidir. Beləliklə, Azərbaycan tarixinə fərqli bir konsepsiyadan baxmaq imkanı əldə olunur. Olduqca geniş bir coğrafiyanın son dərəcə önəmli bir dövrünü əhatə edən fənn günümüzdəki siyasi, sosial və iqtisadi proseslərin tarixi arxa planını da ortaya qoyur. Xüsusilə, Rusiya çarlığı və Sovet dövründə türk coğrafiyalarının məruz qaldığı uzun müddətli işğal və türk | |

<table>
<tr><td></td><td colspan="3">toplumlarının işğal dövründəki yaşayışları da fənnin təsvirini yaradan əsas amillərdən biridir. Osmanlı dövlətinin son dönəmlərinə, Türkiyə respublikasının yaranmasna və tarixinə də fəndə geniş yer ayrılır.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">• Türk coğrafiyalarının təxmini son 300 illik dövrünü dərindən öyrənmək<br>• Bu coğrafiyalarda baş vermiş hadisələrin bu günkü təsirlərini təhlil etmək<br>• Çarlıq və Sovet dövürlərinin türk xalqlarının siyasi və mədəni tarixindəki təsirlərini anlamaq<br>• Osmanlı dövlətinin süqutunun səbəblərini, dövləti ayaqda tutmaq üçün aparılan islahatları, dövrün Osmanlı aydınlarının fəaliyyətlərini və müxtəlif fikir cərəyanlarını təhlil etmək<br>• Hər iki dünya müharibəsində türk xalqlarının fəaliyyətinə nəzər yetirmək<br>• Sovetlərin süqutundan sonra müstəqilliyini əldə edən türk dövlətlərinin Türkiyə və bir-birləri ilə olan münasibətlərini öyrənmək</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">• Kursun problemləri, tarixi prosesləri seçməyi bacarmalı;<br>• Tarixi faktlar içərisində ən əsaslarını seçməyi bacarmalı;<br>• Tarixi prosesləri müqayisə etmək bacarığını formalaşdırmaq;<br>• Öz biliklərini məntiqi çatdırmağı bacarmaq.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="9">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (Quiz) I</td><td>17.03.2026</td><td>5</td></tr>
<tr><td>Yoxlama (Quiz) II</td><td>12.05.2026</td><td>5</td></tr>
<tr><td>Prezentasiya</td><td>26.05.2026</td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr ərzində</td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td>Semstr ərzində</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Prezentasiya işinə qaydalar<br>Semestr ərzində hər tələbə bir dəfə təqdimat etməlidir. Fənnin mövzusuna uyğun olaraq hazırlanan prezentasiyalar sinifdə təqdim edilir. Power Point-də hazırlanması məqsədəuyğundur. Tələbələr araşdırma apararaq təqdimatlarını hazırlamalıdır. Süni intelligent proqramları ilə hazırlanan təqdimatlar 0 (sıfır) kimi qiymətləndiriləcək. Bundan başqa Wikipedia kimi qeyri-akademik saytlardan alınan məlumatlar qəbul edilməyəcək. Hər həftə ən az iki tələbə təqdimat etməlidir. Qrupun sayından asılı olaraq iki və ya üç tələbə də təqdimat edə bilər. Prezentasiya müddəti 20 dəqiqədir.</td></tr>
</table>

| | |
|---|---|
| | **Yoxlama işi (Quiz)**<br>Semestr ərzində iki quiz (Aralıq imtahanından və final imtahanından əvvəl) keçirilir. Hər quiz 5 bal üzərindən qiymətləndirilir. Ən az iki həftə əvvəl tələbələrə quizin tarixi və mövzuları haqqında məlumat verilir. Quiz müddəti 30 dəqiqədir. Müəllimə və dekanlığa öncədən məlumat verilən səbəblərdən quizdə iştirak edə bilməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br><br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr final imtahanına buraxılmır. Fənnin semestr ərzində otuz dənə 90 dəqiqədən ibarət olduğu nəzərə alınanda, tələbə 8-ci qayıbda artıq fənndən kəsilmiş sayılır. Onu da qeyd edim ki, 10 dəqiqədən çox gecikən tələbələr dərsə buraxılmır.<br><br>**Dərsə gecikmələr və ya digər dərs pozuntuları**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Lakin tələbə dərsə buraxılır. Dərsə gecikmə halları sıxlıq təşkil edərsə dekanlığa məlumat verilir. Dərs zamanı çox zəruri olmadıqca sinif otağından çıxmaq qəti qadağandır. Belə halların tez-tez baş verməsi yol verilməzdir. Dərsdə mobil telefonlardan ya da digər elektronik cihazlardan istifadə etmək qəti qadağandır. Bundan əlavə dərs zamanı başqa dərslərlə bağlı materiallardan istifadə etmək olmaz.<br><br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə bildirilir və imtahana aid dərs materialı tələbələrlə bölüşülür. Sual tipləri və sual sayıları haqda da tələbələrə məlumat verilir. Aralıq imtahanında düşən suallar yekun imtahanda təkrarlanmır. İmtahanda hər qrup üçün ən az iki ayrı variant hazırlanır. Variantlar arasındakı balans, o cümlədən sualların çetinliyi məsələsinə diqqət göstərilir. Aralıq imtahanı 30, final imtahanı 40 baldır. Yekun imtahandan əvvəl bütün tələbələr ümumi balları ilə bağlı məlumatlandırılır.<br><br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrar götürə bilər. 57, 58, 59 balla kəsilən tələbələr tamamlama imtahanına müraciət edə bilərlər. Bundan başqa hansısa bir səbəbdəb imtahana girə bilməyən tələbələr isə cərimə imtahanına girə bilərlər.<br><br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr aparmaq qadağandır. Dərsdə mobil telefonlardan və digər |

| | |
|---|---|
| | elektronik cihazlardan istifadə etmək qəti şəkildə qadağandır. Bundan başqa, digər fənnlərə aid dərs materiallarının istifadə edilməsi ya da dərsə aid olmayan işlərlə məşğul olunması qəti surətdə qadağandır. Xəbərdalıqlara baxmayaraq bu qaydanı pozan tələbələr müxtəlif cəzalarla üzləşə bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| **1.** | 17.02.2026 | • Türk Dünyasında Zehniyyət Dəyişməsi və Müasirləşmə qavramı<br>• Qərb təsəvvürü. Müstəmləkə və istismar.<br>• Türk Dünyasında modern kimliyinin formalaşması<br>• Türk dünyasının ən böyük dövləti olan Osmanlıda klassiq dövlət nizamının dəyişməyə başlaması | Telman Nüsrətoğlu- Əkbər Nəcəf, *Türk Dövlətləri və Mədəniyyətləri Tarixi*, s. 707-762. |
| **2.** | 24.02.2026 | • III Səlim və II Mahmudun islahatları<br>• II Məşrutiyyətə qədər baş verən əsas hadisələr<br>• İttihad və Tərəqqi partiyasının meydana çıxması<br>• Soltan II Əbdülhəmidin hakimiyyətdən uzaqlaşdırılması<br>• Trablusqərb, Balkan və I dünya müharibələri dövründə Osmanlı dövləti | Sina Akşin, *Kısa Türkiye Tarihi ,* s. 67- 109. |
| **3.** | 03.03.2026 | • Şərqi Türkistanın tarixi coğrafiyası<br>• XVIII- XX əsrlərdə Şərqi Türkistanda baş verən əsas proseslər<br>• Türkistan və Azərbaycan xanlıqları. | Ramin Qurbanov. *Türk xalqlarının tarixi*, s. 18-23. |
| **4.** | 10.03.2026 | • Çarizmin Qafqaz və Türküstanı işğal etməsi və müstəmləkəçilik siyasəti<br>• Türk xalqları Birinci dünya müharibəsi illərində<br>• Erməni terror təşkilatlarının Cənubi Qafqaz və Anadoludakı fəaliyyətləri | Ramin Qurbanov, *Türk xalqlarının tarixi*, s. 102-109. |
| **5.** | 17.03.2026 | • Birinci dünya müharibəsinin sonu<br>• Osmanlının məğlubiyyətinin nəticələri<br>• Atatürkün rəhbərliyi altında milli müqavimət hərəkatının başlaması | Sina Akşin, *Kısa Türkiye Tarihi*, s.114-156. |
| **6.** | 24.03.2026 | • XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan neftinin dünya iqtisadiyyatındakı yeri<br>• Bakı neft sənayesi. Roltşilt və Nobel | Telman Nüsrətoğlu , *Osmanlı Diplomatiyasının Cənubi Qafqaz Hesabatları* , s. 9-96. |

| | | | |
|---|---|---|---|
| | | qardaşları Azərbaycanda<br>• Osmanlı dövlətinin Qafqaz siyasəti<br>• Şəhbəndərliklərin fəaliyyətləri<br>• Azərbaycanla Anadolu türkləri arasındakı münasibətlər. | |
| **7.** | 31.03.2026 | • Təşkilat-ı Mahsusanın Qafqaz misyası<br>• Azərbaycanın milli komitə və cəmiyyətlərinin istiqlal mübarizəsi<br>• Qafqaz İslam Ordusunun təşəkkülü və Azərbaycanın xilas edilməsi | Mühazirə mətnləri |
| | | **ARALIQ İMTAHANI** | |
| **8.** | 07.04.2026 | • Atatürkün Samsuna gedişi və konfranslar<br>• Milli mübarizənin təşkilatlanması<br>• İnönü müharibələri, Sakarya meydan müharibəsi və Böyük hücum<br>• Qurtuluş savaşının qələbəylə nəticələnməsi və Lozan müqaviləsi. | Sina Akşin*, Kısa Türkiye tarihi*, s.156- 182; |
| **9.** | 14.04.2026 | • Türkiyə cümhuriyyətinin elan edilməsi<br>• Cümhuriyyət dövründə həyata keçirilən əsas islahatlar. | Sina Akşin, *Kısa Türkiye tarihi*, s.182- 265. |
| **10.** | 21.04.2026 | • XX əsrin əvvəllərində Kazan, Bakı və Türküstanda milli hərəkətlər<br>• İ.Gaspıralı və Tərcüman qəzeti<br>• Yeni üsul məktəblərin açılması<br>• Rusiya müsəlmanları qurultayları. | Ramin Qurbanov, *Türk xalqlarının tarixi*, s. 32-63. |
| **11.** | 28.04.2026 | • XX əsrin ilk yarısında Sovet rejimi tərkibindəki Türk cümhuriyyətlərində siyasi, iqtisadi və mədəni vəziyyət<br>• Türk xalqları represiya dövründə | Ramin Qurbanov, *Türk xalqlarının tarixi,* s. 145-155 |
| **12.** | 05.05.2026 | • Türkiyə İkinci dünya müharibəsi dövründə<br>• İnönünün hakimiyyəti illərində Türkiyə<br>• Demokrat Partiyanın quruluşu və daxili siyasi münasibətlər<br>• Türkiyə-Sovet münasibətləri | Sina Akşin, *Kısa Türkiye tarihi* , s. 265-297; |
| **13.** | 12.05.2026 | • XX əsrin ikinci yarısından müstəqillik dövrünə qədər Sovet hakimiyyəti altında yaşayan Türk xalqlarının ədəbiyyat, sənət və təhsil həyatı | Mühazirə mətnləri |

| | | | |
|---|---|---|---|
| | | • Sovet rejiminin dağılmağa başlaması və Türk cümhuriyyətlərində müstəqilliyə gedən proseslər | |
| **14.** | 19.05.2026 | • Türkiyənin NATO-ya üzv olma prosesi<br>• ASALA və PKK terror təşkilatlarının Türkiyəyə qarşı terror aktları<br>• Türkiyə siyasəti və iqtisadiyyatında çağdaş durum. | Mühazirə mətnləri |
| **15.** | 26.05.2026 | • Türk dünyasındakı çağdaş siyasi, iqtisadi, mədəni durum<br>• TDT və birlik axtarışları<br>• Müasir dövr Türk xalqları mədəniyyətinə dair qeydlər | Ramin Qurbanov, *Türk xalqlarının tarixi,* s. 174-187. |
| | | **FİNAL İMTAHANI** | |

**“Türk xalqları tarixi-2” fənninə aid prezentasiya mövzuları**

1. Azərbaycan Xanlıq dövlətləri və Rusiyanın siyasi, hərbi, iqtisadi münasibətlərinin təsviri
2. Yeniçeri Ordusunun ləğv edilməsinin siyasi-hərbi nəticələri
3. Krım xanlığı və onun Rusiya tərəfindən işğalı
4. Qazan xanlığının Rusiya tərəfindən işğalı və Türk tarixindəki nəticələri
5. Rus işğalı sonrası Kırımın etno-demografiq durumunun dəyişdirilməsi prosesi
6. XX əsrin əvvəllərində Azərbaycanda dərs deyən Türkiyəli müəllimlər.
7. Şərq xalqları qurultayı Azərbaycan mətbuatında
8. Rusya Dövlət dumasının “Müsəlman fraksiyası”
9. Ənvər paşanın Türküstandakı fəaliyətləri
10. SSRİ-nin Türk xalqlarının sosial-iqtisadi həyatı (1953- 1964)
11. Çarizmin Mərkəzi Asiyanı işğal etməsi və müstələkə siyasəti
12. Gənc türklər və Balkan müharibələri
13. XIX əsrin sonu XX əvvəli
14. Orta Asiya uğrunda Rusiya və İngiltərə mübarizəsi
15. Qafqazda çar Rusiyasının siyasəti. Hərbi–inzibati idarəetmə
16. Osmanlı imperiyası XIX əsrin birinci yarısında
17. Rusiya Dumasındakı Türk deputatların fəaliyyəti
18. Birinci dünya müharibəsi və Azərbaycan-Anadolu münasibətləri
19. Rus əsarətində yaşayan Türk xalqları Birinci Dünya müharibəsi illərində

**20.** 1917-ci il fevral inqilabından sonra Orta Asiya,Volqaboyu, Sibir və Krımda ictimai siyasi vəziyyət

**21.** Türk xalqları Represiya dövründə

**22.** Kırım Tatarlarının vətənlərindən sürgün edilməsi

**23.** Türk xalqlarının mədəniyyəti Sovet dövründə.Milli kimlik və tarix problemi.

**24.** Türküstanda Basmaçılar hərəkatı

**25.** XIX əsrin sonu XX əsrin əvvəllərində Kazan və Orta Asiyada Cədidçilik hərəkatı

**26.** İ. Qaspıralı və Tərcüman qəzeti.

**27.** Doğu Türkistanın tarixi coğrafiyası Z.V.Toqanın həyatı və əsərləri

**28.** İsa Yusif Alptekin və Doğu Türküstan

**29.** Sultan Abdulhamid və Fələstin məsələsi

**30.** Atatürkün Mosul-Kərkük siyasəti.